# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 234 (1122) 18 dekabr - 19 dekabr 2015-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU


# AĞCABƏDİ - 2015

## Uğurlu ilə yekun

**Payızın son ayı arxadı qaldı. Artıq dekabrın sonlarına doğru gedirik. Təkcə ay dəyişməyib, fəsil dəyişməyib. Bu dəyişiklik ömrümüzdə də, həyatımızda da özünü büruzə verməkdədi. Xüsusilə bölgələrdə, kənd rayonlarında payızın barlı-bərəkətli, təravətli nəfəsi adamın üzünə gülür, könlünü xoş edir. Bunun əsas səbəbi də torpaq adamının bəhrəsinin barını görməsidi. Çəkilən əziyyətlər axıdılan tər indi ruzi-bərəkətə çevrilib sahələrdən toplanır. Və hər kəs də öz zəhmətinin, öz əziyyətinin həm dəyərini müəyyənləşdirə bilir, həm də onun qarşılığını büdcəsində, zənbilində, saxlancında görüb saxlamaq imkanı qazanır.**

Təbii ki, ”Regionların İnkişafına Dair Dövlət Proqramı”na uyğun olaraq məmləkətimizin bütün əraziləri kimi Ağcabədidə də payızın gəlişi öz sözünü deyir, özünü büruzə verir. Bu həm tək-tək saralan yarpaqlarda, həm də ağacların budaqlarını əyən meyvələrin dadında-tamında, qızarmış yanaqlarında özünü göstərirö. Adamlar torpağın onlara bəxş etdiyi bu nemətləri dərib toplamaq, bazar-dükana çıxarmaq, Allahın verdiyi bu bol neməti süfrələrə çatdırmaq üçün güclərini səfərbər edirlər. Kimi fermer kimi, kimi sahibkar kimi, kimi də adi vətəndaş kimi. Bax, bu da təsərrüfatçılığın sərbəstliyindən, insanların öz həyatlarını özlərinin qurmasına yaxşı bir nümunədir.




Yəni hər kəs öz işinin sahibi, öz məhsulunun ağasıdı. Təbii ki, burda bir məqam da var. O da Azərbaycan prezidenti İlham Əliyev cənablarının 2015-ci ilin ”Kənd təsərrüfatı ili” elan etməsi ilə bağlı nəzərdə tutulan işlərin mahiyyətindən, yəni məhsul bolluğu üçün gərəkli olan addımların atılmasından ibarətdir. Bax bu mənada cənab prezidentin də vurğuladığı kimi, ”Bu il Azərbaycanda kənd təsərrüfatının bütün sahələri üzrə irəliləyişlərə nail olmaq əsas vəzifədir. Bunun üçün investisiya qoyulmasından, eləcə də sahənin bütün təlabatlarının ödənilməsindən ibarət olan ən vacib vəzifələr birinci növbədə yerinə yetirilməlidir. Kənd adamları onlara göstərilən diqqət və etimadın bəhrəsini görməlidilər. Bax bu da bütün Azərbaycan üçün yaradılacaq bolluğun, böyük inkişafın stimulları deməkdi”.

**”... Bu gün Azərbaycan regionun güclü dövlətinə çevrilməklə özü öz həyatını, öz siyasətini, öz yolunu müəyyənləşdirib. Bizim güclü ordumuz və həm də möhkəm, inkişaf edən iqtisadiyyatımız var. Biz məhsul idxal edən ölkədən məhsul ixrac edən ölkəyə çevrilirik. Bu, bizim uğurumuzdur!”**

*Azərbaycan Respublikasının Prezidenti*
*İlham Əliyev*

Bəli, Nazirlər Kabinetinin iclasında çıxış edən ölkə prezidentinin məsələni bu cür konkret qoyması və hər kəsdən də öz üzərinə düşən vəzifəni məsuliyyətlə, vicdanla icrasını tələb etməsi bir daha göstərir ki, 2015-ci ilin, yəni ”Kənd təsərrüfatı ili”nin uğurları üçün ölkə rəhbərliyi səviyyəsində gərəkli işlərin hamısı planlaşıdırılıb, görülüb və görülməkdə də davam etdirilir. Deməli, biz də həmin işlərin regionların timsalında icrasına diqqət yetirərkən öyrəndik ki, bu il Ağcabədi rayonunda kənd təsərrüfatı sahəsində xeyli işlər görülüb.

Təbii ki, bu işlərin sırasında xüsusi yeri məhsul bolluğu, məhsul istehsalı tutur. Yəni faktiki olaraq Ağcabədidə cari ildə rayonun kənd təsərrüfatfına yararlı olan 126.088 hektar torpağın 65,704 hektarı əkin altına verilmiş, 59974 hektarı isə otlaq kimi saxlanılmışdı. Bax, həmin ərazilərin əkilib becərilməsi, suvarılması, yəni kifayət qədər məhsul əldə edilməsi üçün rayonda planlı şəkildə kənd təsərrüfatının inkişaf mexanizmi hazırlanmışdı. Bu da öncədən rayon icra hakimiyyətinin və əlaqədar qurumların birgə hazırladıqları fəaliyyət proqramının tərkib hissəsi idi. Buraya Respublika Nazirlər Kabinetinin ”Kənd Tsəərrüfatı məhsullarının istehsalına əkin sahələrinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına yardım verilməsi qaydaları” xüsusi bir dəstək olmuşdu. Bir az da açıq şərh etsək, məhz məlum qərar adamların torpağa marağını bir az da artırmış, bir növü onlara görəcəkləri işi başlamaq üçün bir dəstək, bir ipucu olmuşdu. Konkret olaraq rayonun hər bir torpaq sahibi hələ sahələr çıxmamışdan öncə onlara dövlət tərəfindən nə qədər vəsait veriləcəyini bilmiş və buna uyğun şəkildə də şuma, səpinə başlamışdı. Bax bu gün həmin əkilmiş sahələrdən əldə olunan bol məhsul məhz dövlətin verdiyi dəstəyin bariz nümunəsidi. Əgər rəqəmlərlə ifadə etsək, onda deyə bilərik ki, cari ildə Ağcabədidə 3674 nəfər buğda istehsalçısına 734360 manat subsidiya verilmişdi. Ümumiyyətlə isə bu il Ağcabədi rayonunda 54498 hektar sahə üçün 2 milyon 724 min 928 manat subsidiya verilməsi nəzərdə tutulur ki, bu da hər hektara 50 manat deməkdi. Göründüyü kimi, rayon rəhbərliyinin sahibkarlarla, fermerlərlə, ümumiyyətlə torpağı yaşadanlarla əlaqəsi sonda həm məhsul bolluğuna, həm də adamların güzəranının yaxşılaşmasına gətirib çıxarır.

Ağcabədidə olarkən müşahidə etdiyim məhsul bolluğunun ayrı-ayrı parametrləri məndə xoş ovqat yaratdı. Təbii ki, bu, həmişə özünün barı-bərəkəti ilə seçilən Ağcabədiyə və bütövlükdə ağcabədililərə xas xüsusiyyətdi. Bu torpaqda əkilən hər dən mütləq məhsula çevrilir. Çünki Ağcabədi sakinləri torpağı becərməyi, onun bədii şəkildə ifadə etsək, dilini bilirlər. Bir az obrazlı ifadə etsək, dilini, sirrini bildiyin hər şeyin və hər kəsin dilini bilmək artıq görüləcək işin necə deyərlər 50 faizidi. Bax bu mənada Ağcabədidə əkinçiliyin bütün sahələrinə maraq göstərilir. İstər dənli bitkilər, istər bostan-tərəvəz məhsulları, istərsə də pambıq, üzüm və digər gəlirli sahələr. Yenə rayondan əldə etdiyimiz rəqəmlərə üz tutsaq onda görərik ki, Ağcabədi rayonunda yaradılmış özəl pilot taxılçılıq təsərrüfatı bu il 1160 hektar sahədə buğda, 1500 hektar sahədə qarğıdalı, 640 hektar sahədə isə soya əkmişdi. Toplanmış məhsulun ilkin məhsuldarlığı həqiqətən ürəkaçandı. Demək olar ki, hər hektardan 58,1 sentner buğda biçilmişdi. Böyük Səməd Vurğunun dediyi kimi: ”Torpağı düşməyib havayı bir dən!!!” Çünki bu torpağın sahibi əkdiyinin də qədrini bilir, becərdiyinin də.



**Bəli, Azərbaycan prezidenti İlham Əliyev cənablarının da vurğuladığı kimi, ”bu gün Azərbaycan regionun güclü dövlətinə çevrilməklə özü öz həyatını, öz siyasətini, öz yolunu müəyyənləşdirib. Bizim güclü ordumuz və həm də möhkəm, inkişaf edən iqtisadiyyatımız var. Biz məhsul idxal edən ölkədən məhsul ixrac edən ölkəyə çevrilirik. Bu, bizim uğurumuzdur!”**

**(Ardı var)**

***Əbülfət MƏDƏTOĞLU***


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ